

Əminə YUSİFQIZI,
*Respublikanın əməkdar jurnalisti*

# Şəhidlik - ömür payını 19 yaşında Vətənə bağışlamaqdır - Rahim kimi!

**Azərbaycanın azadlığı və ərazi bütövlüyü uğrunda canlarını qurban vermiş şəhidlərimiz tərtəmiz, müqəddəs qanlarını torpağa qarışdıraraq, bu yurdu bizə əbədi vətən etdilər, Xocalı faciəmizə bir nəbsə su səpib, vətən dərdimizə dərman olublar. Nə demişdir böyük türk xaqanı: "Torpağa su qatarsan palçıq yapıb ev tikərsən, qan qatarsan vətən yapıb üstündə övlad böyüdər, dövlət qurarsan". "Bu Vətən bizimdir!" deyib canından keçib Rahib Cəbrayılov - 19 yaşlı körpə şəhidlərimiz.**

Çiçəyi burnunda bu körpənin qanı 30 ildir gözləri quruyan kəhrizlərimizin gözünü açdı, düşmən içməsin deyə, içinə axan bulaqlarımıza həyat oldu, ömrü budanmış ağaclarımızı yenidən pöhrələndirdi, Quranı oxunmayan, namazı qılınmayan dağılmış məscidlərimizə azan səsi oldu. Oğlunun qanı nə qədər qüdrətliymiş Aytən ana, torpağını göyərtdi, bayrağını ucaltdı, bir millətin dərdinə dərman oldu.

Rahib Ramil oğlu Cəbrayılov doğma Quşçu kəndində doqquzuncu sinfi bitirdikdən sonra Xaldan kənd kompleks tam orta məktəbində təhsilini davam etdirmişdir. Haracan desən intizamlı, ictimai işlərdə fəallıq göstərən, öz üzərində çalışan əlaçı şagird kimi tanınırmış. Özünə görə yüksək intellektə malik olan Rahib siniflər və məktəblərarası bilik yarışmalarında da fərqlənər, uğurlu nəticələr qazanırmış. Bu müsbət məziyyətlərinə görə təhsil aldığı məktəbin müəllim və şagird kollektivinin rəğbətini qazanmışdı.

Orta məktəbi müvəffəqiyyətlə başa vuran Rahib Cəbrayılovun kompüter və informasiya texnologiyaları ilə işləmək bacarığını nəzərə alıb Bərdə şəhərindəki regional "Asan xidmət" Mərkəzinə dəvət edirlər. Həqiqi hərbi xidmətə çağırılanadək orada çalışır.

Cəmi 6 ay idi ki, Milli Orduda xidmət edirdi. Sentyabrın 27-də düşmən təxribatının qarşısını almaq məqsədi ilə başladığımız Vətən müharibəsinin elə ilk günündə Füzuli rayonunun işğaldan azad edilməsi uğrundakı qanlı döyüşlərə qatılır və təəssüf ki, elə ilk gün də şəhidlik zirvəsinə ucalır. Yoxsa, sevindin düşmən? 19 yaşında, bığ yeri təzəcə tərləmiş cavan igidin qanını tökməkdən zövqmü aldın? Unutma, bu millətin bir Rahibi ölərsə, minlərlə rahibləri doğular. Sən ağla ki, o rahiblər sənin soyunu-kökünü qurudacaq, söyüd ağacında bar ola bilməz, deyib bizim şairimiz. Rahibimiz ən yüksək qatda özünə yer seçən günü, sizlər qorxub geri çəkildiniz, kirli ayaqlarınızı çəkdiniz Füzulidən. Gürcü yazıçısı Serqi Sacaya nə gözəl deyib haqqınızda: "Ermənilər şir deyil, güclü dövlətlərə qulluq göstərən çaqqallardır". Mənim Prezidentim isə Rahib kimilərini nəzərdə tutub bu gün qürurla deyir: "Əsgər və zabitlərimiz aslan kimi döyüşürdülər".



Ən ətirli gənclik və cavanlıq qanı ilə doğma Vətənə sevgisini təsdiq etdi Rahib. Bu igid əsgərimizin üçrəngli bayrağımızla bəzənmiş mübarək nəşi doğulub boya-başa çatdığı, şıltaq və qayğısız uşaqlıq illərini yaşadığı Quşçu kəndində, şəhid Fərid İsmixan oğlu Cəfərovun uyuduğu məzarlıqda əbədiyyətə tapşırıldı. 2001-ci il dekabrın 26-da dünyaya gəlmişdi Rahib. İndi ondan valideynlərinə istifadə etdiyi əşyalar, fotolardan boylanan məsum baxışları, bir də şirin-şirin yatıb dincəldiyi, şirin-şirin arzular yaşadığı, şirin-şirin röyalar gördüyü çarpayısı. Daha o çarpayıda kimsə yatmayacaq. O çarpayı Rahibin ölməz ruhunun sevimli valideynləri ilə görüş limanı olacaq. Kim bilir, bəlkə də bu dünyadan nakam köçən Rahib balamız qəlbində özü ilə bərabər gizli bir sevgisini, sirli eşqini, ülvi məhəbbətini də aparıb. Bir qıza açılmamış ürəyi, deyilməmiş sözü, etiraf etmədiyi sevgisi qaldı, Bir də o qızın yollarda qalan gözü, eşitmək istədiyi o sirli sözü...

Valideynləri Ramil və Aytən Cəbrayılovlar kədərlərini onunla azaldıb, təskinlik taparaq fəxr edirlər ki, gənc övladları haqq savaşında, Azərbaycanımızın dilbər guşəsi Qarabağımızın düşmən işğalından azad olunması yolunda canını fəda edib. Bəs, oğul nə üçündür?! Torpaq uğrunda ölən varsa Vətəndir- deyiblər ulularımız, müdriklərimiz, aqillərimiz.

Cəbrayılovlar ailəsində daha iki oğul böyüyür. Qəhrəman şəhidimiz Rahibin qardaşları Sahib və Ömər.

Quşçu kəndində iki ünvan müqəddəs ocaq kimi ziyarətə çevrilib. Rahib və Fəridin ölməz ruhlarının pərvazlandığı iki ünvan. Orda hər zaman çiçəklər təptəzə tərdir.



Rahib Cəbrayılovun valideynləri Ramil və Aytən xanımla bir ildən sonra yenidən görüşürəm. Ürəklərində körpə bala dərdinin açdığı yaranı görməmək mümkün deyil, həsrətdən gözünün kökü saralıb ananın, üzünə bir tarixin qaldırmağa gücü yetməyəcək ağır hüzn yüklənib. Qoynundan-qucağından 19 yaşlı fidanı gedib. Necə yaşadınız, nələr oldu həyatınızda bu bir ildə, sordum hər ikisindən. Aytən xanım özünü zorla ələ alıb, oğlum Rahibdən sonra xəstəlik tapdım, əsəblərim pozuldu, işıqlı dünyam qaraldı, ancaq toxtaq durmağa çalışıram, el-oba, tanıyan-bilən oğlumla fəxr edirkən, mənim ölməyə haqqım yoxdur. Xəstə də olsam, oğlumun mənə qazandırdığı şəhid anası qüruru ilə yaşayacağam, dedi.

Şəhidin atası Ramil dedi ki, ortançıl oğlum Sahib də 4 aydır ki, hərbi xidmətə gedib. Allah sağ-salamat valideynlərinə, sevdiklərinə qovuşdursun.

Ailəyə göstərilən diqqətdən, qayğıdan ağızdolusu danışdılar. Dövlət başçısı, digər rəsmi qurumlar və yerli icra orqanları tərəfindən indiyədək edilən maddi-mənəvi dəstəkdən, hər kəs tərəfindən göstərilən hörmətdən razılıq edirlər. Kiçik oğul Ömər bu il VI sinfə keçib. Dövlət tərəfindən ailəyə əlavə həyətyanı sahə verilib, pay torpaq sahəsi verilməsi də nəzərdə tutulub. Aytən xanım deyir ki, Rahibsiz yaşamaq, nəfəs almaq çətindir, evimizin hər yerində izi, xatirəsi var, balamın yoxluğuna hər gün min dəfə ölüb dirilirik. Bizə maddi və mənəvi dəstək olan dövlətimizdən və insanlarımızdan Allah razı olsun, bu sayğı, sevgi bizi həyata bağlayır.

Şəhidin valideynləri bir daha ölkə başçısı, Silahlı Qüvvələrin Ali Baş Komandanı İlham Əliyevə və Birinci vitse-prezident Mehriban xanım Əliyevaya dərin minnətdarlıqlarını bildirdilər.

**Cəbrayılov Rahib Ramil oğlu ölümündən sonra Azərbaycan Respublikasının Prezidenti, Silahlı Qüvvələrin Ali Baş Komandanı İlham Əliyevin sərəncamı ilə "Vətən uğrunda", "Cəsur döyüşçü" və "Xocavəndin azad olunmasına görə" medalları ilə təltif olunmuşdur. Rahibin uğrunda canından keçdiyi Qarabağ Azərbaycandır!**